# ŞƏRƏFLİ HƏYAT YOLU



Zaman-zaman hər bir ailəyə sevinc, xoşbəxtlik, ümid bəxş edən insanlar yaşamış və bu insanlar həyatda qoyduqları izlərə uyğun olaraq öz ətraflarında olan insanların qəlblərində sönməz bir məhəbbət çırağı yandırmışlar. Həmin insanlardan biri də 95 il bundan öncə həyata göz açmış və respublikanın elmi-pedaqoji ictimaiyyəti arasında özünə nüfuz və hörmət qazanmış görkəmli pedaqoq və alim, biologiya elmləri doktoru, professor Tofiq İsa oğlu Qazıyev 1920-ci il may ayının 20-də Samux rayonunda anadan olmuşdur.

Uşaqlıq və gənc yaşlarında Tofiq Qazıyev həmyaşıdları arasında səliqə-sahmanı, təhsilə, elmə olan marağı ilə seçilirdi. O, yaşayıb böyüdüyü, Kür çayı ətrafı təbiəti ilə maraqlanmış və təbiətdə baş verən hadisələrə xüsusi diqqətlə yanaşmışdır. Məhz həmin bu maraq onun elmdə seçdiyi həyat yolunu müəyyənləşdirmişdir.

Tofiq Qazıyevin atası, o zamanın sayılan ziyalılarından olan İsa Çələbi el-oba arasında özünəməxsus nüfuz sahibi və dövrün savadlı, insanlara lazımi şəraitdə köməkliklər göstərən şəxsiyyət olmuşdur. İsa Çələbi övladlarına da xüsusi məhəbbət ilə yanaşmış və onları təhsilə və elmə sövq etmişdir. Tofiq müəllimin uşaqlıq və gənclik illəri müəyyən mənada ağır dövrə təsadüf etmiş, lakin onun keçdiyi şərəfli həyat yolu bu baxımdan da böyük ləyaqət nümunəsi sayıla bilər. Əmək fəaliyyətinə müəllim kimi başlayan gənc Tofiq Qazıyev dövrün ağır məqamlarına baxmayaraq, məqsədinə doğru qətiyyətlə irəliləmişdir.

1938-ci ildə Gəncə Dövlət Pedaqoji İnstitutunun tələbəsi sıralarına qəbul olunan Tofiq Qazıyev təhsil müddətinin ilk dövrlərində hərbi xidmətə çağırılır və Sovet-Fin müharibəsinə yollanır. 1941-ci ildə Böyük Vətən Müharibəsi başlayır və 5 il müddətində müharibələrdə iştirak edir. Həmin illərdə şərəfli döyüş yolu keçən, göstərdiyi şücaətə görə Tofiq Qazıyev 1942-ci ildə baş leytenant rütbəsinə layiq görülmüş, Vitebsk şəhərinin alman faşistlərindən azad olunmasında qəhrəmancasına vuruşmuş, döyüş zamanı aldığı bir neçə ağır güllə yaralarından hospitalda müalicə olunmuşdur.

1944-cü ilin yayında ikinci qrup müharibə əlili kimi ordudan tərxis olunaraq Gəncə şəhərinə qayıdır. Aldığı ağır yaraların təsirinə baxmayaraq, Tofiq Qazıyev öz mübarizliyindən geri dönmür. O, həmin il Gəncə Dövlət Pedaqoji İnstitutunun tələbəsi sıralarına bərpa olunur. Beləliklə, müharibədən əvvəl yarımçıq qalan ali təhsilini başa vurur və elmi şuranın qərarı ilə aspiranturaya qəbul olunur.

1956-cı ildə Biologiya ixtisası üzrə namizədlik dissertasiyasını müdafiə edərək, həvəslə doktorluq dissertasiyası üzrə işlərin aparılmasına başlayır. 1962-ci ildə doktorluq dissertasiyasını müdafiə edir və geniş elmi-pedaqoji fəaliyyətə başlayır. İşlədiyi dövrdə 150-dən çox elmi əsərin və müxtəlif monoqrafiyaların, dərs vəsaitlərinin müəllifi olur. Fəaliyyəti dövründə yazdığı "Pambığın nektarlıq problemi və bal arılarının pambığın məhsuldarlığının artırılmasında rolu" monoqrafiyası beynəlxalq elm ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Monoqrafiya 1968-ci ildə İngiltərədə və ABŞ-da tərcümə edilir və çap olunur. Bu dövrdə professor Tofiq Qazıyevin əldə etdiyi nailiyyətlər bir sıra dünya alimlərində maraq doğurur və müxtəlif elmi-tədqiqat institutları tərəfindən onun ünvanına məktublar və dəvətnamələr gəlir.

O, hər zaman çətinliklərə sinə gərməyi, haqsızlıqlardan sınmamağı və son nəticədə özünü təsdiq etməyi bacarmış, məhz bu mənada güclü bir insan idi. 55 ildən çox fəaliyyət göstərdiyi pedaqoji institutda müəllimlikdən başlayaraq kafedra müdiri, fakültə dekanı, prorektor vəzifələrində çalışmış, 1971-1972-ci illərdə isə rektor əvəzi işləmişdir. Həmin dövrlərdə institutdakı vəziyyət ilə yaxından tanış olan Tofiq müəllim təhsil müəssisəsi qarşısında duran problemlərin həlli ilə bağlı proqram işləmiş və proqrama əsasən qarşıda duran çatışmazlıqların aradan götürülməsi üçün müəyyən instansiyalara müraciət etmişdir. Nəticədə təhsil müəssisəsində müxtəlif təmir-tikinti işləri aparılır və maddi-texniki baza gücləndirilir. Həmin dövrdə şəhər rəhbərliyinin apardığı haqsızlıqlar Tofiq Qazıyevin ətrafında qeyri-sağlam mühitin yaranmasına, təzyiqlərə məruz qalmasına əsas olmuşdur. Bir müddət müəyyən yoxlamalar, müxtəlif komissiyalar Tofiq Qazıyevin fəaliyyətini araşdırmaq üçün təşkil olunmuşdur. Haqsızlıqların ardı kəsilmədiyini görən Tofiq Qazıyev, respublikanın rəhbəri, Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevə müraciət etməli olur. Şəhər rəhbərliyi az bir müddətdən sonra dəyişdirilmişdi. Hadisələr bir daha onu göstərdi ki, professor Tofiq Qazıyev tək özünə qarşı törədilən haqsızlıqlara yox, ümumiyyətlə, cəmiyyətdə baş verən haqsızlıqlara, yersiz ittihamlara və digər qeyri-sağlam münasibətlərə qarşı çıxaraq, yerində sözünü demək iqtidarında olan bir insan idi.

Ötən əsrin 90-cı illərində respublikamızın ictimai-siyasi həyatında baş verən hadisələr və milli elmimizə vurulan zərbələr professor Tofiq Qazıyevin şəxsiyyətində onda mübarizə əzmini canlandırır və əsl vətəndaş-alim kimi konkret mövqeyini müəyyənləşdirir. Bu zamanlar hər bir sağlam düşüncəli azərbaycanlı kimi, o da ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə dəvət olunması çağırışlarını səsləndirir.

1993-cü ilin əvvəllərində Gəncə Dövlət Pedaqoji İnstitutunun Yeni Azərbaycan Partiyasının üzvlüyünə birinci olaraq yazılan Tofiq Qazıyev hər zaman işlətdiyi "Alim olmaya bilərsən, lakin vətəndaş olmağa borclusan" sözlərini əməlləri ilə təsdiqləyirdi. Sözün əsl mənasında vətəndaş-alim olan Tofiq Qazıyev ömrünün sonunadək bu amalla yaşadı. Şəhərin ictimai-siyasi həyatında daim fəal iştirak etmiş, yaşadığı həyat tərzi ilə nümunə olmuşdur.

Professor Tofiq Qazıyev tələbə-gənclər arasında tez-tez ulu öndərimiz Heydər Əliyevin bir fikirini söyləyərdi: "O insanlar ki sədaqətlidirlər, saf mənəviyyatları ilə yaşayırlar, xalqına, millətinə, torpağına xidmət edirlər, dövlətin qanun-qaydalarına tabe olurlar, bu qanun-qaydaları qoruyurlar və onların həyata keçirilməsinə çalışırlar - belə adamlar həmişə mənim silahdaşımdır, mənimlə birdilər və mən də bu adamlar ilə birlikdəyəm".

Böyük həyat yolu keçmiş alim-vətəndaş, biologiya elmləri doktoru, professor Tofiq Qazıyev müxtəlif orden və medallarla təltif edilmişdir: Böyük Vətən Müharibəsi dövründə birinci və ikinci dərəcəli "Böyük Vətən Müharibəsi" ordenləri, Böyük Vətən Müharibəsində qələbə ilə bağlı 10-dan çox medallar ilə, 1986-cı ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Şərəf nişanı" ordeni ilə, 1995-ci ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin fərmanı ilə "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində Qələbənin 50 illiyi" yubileyi medalı ilə təltif olunmuşdur. Bütün bunlarla yanaşı, yüksək mənəviyyatlı insan üçün ən yüksək mükafatı özünə layiq ailəsinin olması və onu yaxşı tanıyanların yaddaşlarında saxlanan hörmət və ehtiramıdır.

Görkəmli alim Tofiq Qazıyev yaşadığı dövrdə bir vətəndaş olaraq öz insani prinsipiallığı, işgüzarlığı və yüksək mənəvi dəyərlərinə görə xalq arasında daim sevimli olmuş və bugün də onu tanıyanlar arasında söz-söhbəti örnək olaraq səslənməkdədir.

**M.MUSTAFAYEV,**
**"Respublika".**